DÜNYA XƏBƏRLƏRİ

# ABŞ Rusiya universitetlərini 'qara siyahı'ya salıb

indicə




Moskva Dövlət Universiteti

ABŞ Müdafiə Nazirliyi (Pentaqon) "şübhəli fəaliyyətlə məşğul olan" və ölkənin milli təhlükəsizliyinə təhdid yaradan xarici qurumların yenilənmiş siyahısını dərc edib. Siyahıda Çin, Rusiya və İranda fəaliyyət göstərən 130 ali təhsil və elmi-tədqiqat müəssisəsi yer alıb.

Pentaqonun rəsmi saytında bildirilir ki, **"ABŞ tədqiqatçılarına, akademik qurumlarına və sənaye tərəfdaşlarına bu siyahıdakı istənilən qurumla əməkdaşlıq, maliyyələşdirmə və ya məlumat mübadiləsi məsələlərində son dərəcə ehtiyatlı davranmaq tövsiyə olunur".**

Siyahıya Rusiyanın 33 ali təhsil və elmi-tədqiqat ocağı salınıb. Bunların arasında Moskva Dövlət Universiteti, Ali İqtisadiyyat Məktəbi, Bauman adına Moskva Dövlət Texniki

Universiteti, Moskva Aviasiya İnstitutu, Kurçatov İnstitutu, Skolkovo Elm və Texnologiya İnstitutu və digər qurumlar var.

"T-invariant" nəşri apreldə yazmışdı ki, oliqarx **Oleq Deripaska**nın maliyyə dəstəyi ilə Moskva Dövlət Universitetində süni intellekt fakültəsi açılıb. Nəşrin məlumatına görə, həmin fakültəyə Rusiya prezidenti Vladimir Putinin kiçik qızı rəhbərlik edir. O, eyni zamanda universitetin Süni İntellekt və İntellektual Sistemlər Problemləri üzrə Perspektiv Araşdırmalar İnstitutunun direktorudur.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur